*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 avqust 2016-cı il № 66 (2081) Qiymətı 25 qəpik

*Cəbhə bölgəsindən reportaj*

Ali Baş Komandan İlham ƏLİYEV:

*Aprel döyüşləri onu da göstərdi ki, Azərbaycanda vətənpərvər gənclik formalaşıb*



# Mənəvi borc

*Adətən ömrün gənclik illərini dağ çaylarına bənzədirlər, çünki gənclər daim qurub-yaratmaq əzmində olurlar. Müasir Azərbaycan gəncliyi vətənpərvərdir, öz xalqının, millətinin taleyini düşünür, müstəqilliyimizin qorunması yolunda mübarizələrdən keçib və yenə də fədakarlıq göstərməyə hazırdır.*

Ümummilli liderimiz Heydər Əliyev siyasi hakimiyyəti illərində gəncliyə böyük ümid bəsləyərək cəmiyyətin avanqard dəstəsi kimi formalaşmasına kömək edirdi. O, qeyd edirdi ki, Azərbaycan xalqına mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir. Ulu öndərin Silahlı Qüvvələrin komandir heyətinə müraciətlə dediyi, "gərək bizim hərbi hissələr və bu hissələrdə xidmət edən zabit, komandir heyəti o qədər yüksək səviyyəli olsun ki, bir altı ay müddətində orduya səfərbər edilən hər bir azərbaycanlı gənci hərbi peşəyə alışdıra bilsin, onu öyrədə bilsin, gənclər hərbi peşəni sevsinlər və ordudan tərxis olunanda əsgəri xidməti daim böyük məhəbbət hissi ilə xatırlasınlar. Gələcəkdə harada yaşayacaqsa, harada xidmət edəcəksə, lazım olduqda yenə də səfərbər olub orduya gələrək sadəcə adi insan kimi yox, hərbi hazırlıqlı şəxs kimi Azərbaycan torpaqlarını müdafiə etsin, respublikamızın dövlət müstəqilliyini təmin etsin", sözləri gənclərimizin həyat devizidir.

Dahi rəhbərin ömür yolunu özünə örnək bilən gəncliyimiz müasir dövrdə də Azərbaycan dövlətinin, şəxsən Prezidentimiz İlham Əliyevin böyük dəstəyi sayəsində mühüm uğurlara imza atır. Dövlət başçımız aprel döyüşlərinin nəticələrindən danışarkən qeyd etdi ki, bu gün Azərbaycanda gözəl nəsil, vətənpərvər gənclik yetişib. Doğrudan da həmin döyüşlər düşmənlərimizə anlatdı ki, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında qəhrəmanlığın sirlərinə yiyələnən gənclərimiz torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qətiyyətli mübarizəyə hər an hazırdılar. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bildirdiyi kimi, bu gün düşmənlə təmas xəttində xidmət edən gənclərin hər biri həm Vətənimizi qorumağa qadir olan mübariz döyüşçü, həm də gələcəyin etibarlı vətəndaşı kimi yetişir.

Böyük bir dağlıq ərazidə düşmənə sinəsini sipər edən "N" hərbi hissəsinin şəxsi heyəti də əsasən gənclərdən ibarətdir. İstər zabit-komandir heyətinə daxil olan, istərsə də çavuş və əsgərlərdən ibarət gənclər mürəkkəb təbii şəraitdə gecə-gündüz torpaqlarımızın müdafiəsində mətinliklə dayanıblar.

**(Ardı 3-cü səhifədə)**



Toplarımız hədəfləri məhv etməyə hazırdır

4-cü səhifədə



Vətəni qoruyanların sağlamlığı keşiyində

5-ci səhifədə



Sülh insanlara xoşbəxtlik gətirir

6-cı səhifədə



Düşmən hər an nəzarətdədi

7-ci səhifədə

# Müdafiə naziri Moldovanın ölkəmizdəki səfiri ilə görüşüb



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov avqustun 25-də Moldova Respublikasının ölkəmizdəki səfiri George Leuka ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uzun illər ərzində müxtəlif istiqamətlərdə, o cümlədən hərbi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb.

Azərbaycan-Moldova əməkdaşlığının, xüsusilə hərbi sahədə yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyini qeyd edən Müdafiə naziri bunun üçün geniş imkanların olduğunu deyib.

General-polkovnik Zakir Həsənov regiondakı hərbi-siyasi vəziyyət barədə danışdıqdan sonra səfirin Azərbaycandakı diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı işinə töhfə verəcəyinə əminliyini ifadə edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Diplomat isə öz növbəsində ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb və əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

# Hərbi Dəniz Qüvvələrində keçirilən təlimlərin döyüş atışlı mərhələsi icra edilib





*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə və təsdiq edilmiş döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində keçirilən təlimlərin döyüş atışlı növbəti mərhələsi icra edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərə 3000 nəfərədək şəxsi heyət, 30-dan artıq döyüş gəmisi, katerlər, 20-dək döyüş təyyarəsi, helikopterlər və 20-dən çox raket-artilleriya qurğusu cəlb edilib.

Avqustun 24-də, təlimlərin əsas mərhələsində, Müdafiə Nazirliyinin rəhbər heyəti komanda idarəetmə gəmisində dəniz poliqonunda təlim tapşırıqlarını yerinə yetirən qüvvə və vasitələrin manevrlərini və döyüş atışlarını izləyib.

Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, eləcə də xüsusi təyinatlıların iştirakı ilə keçirilən təlimlərin ilkin mərhələsində HDQ-nin tam döyüşə hazır vəziyyətə gətirilməsi, gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, komplektləşdirmə və döyüş uzlaşması tədbirləri müvəffəqiyyətlə yerinə yetirilib.



Növbəti mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus hissəsində enerji infrastrukturunun mühafizəsi üzrə əməliyyatların planlaşdırılması və təlimlərdə iştirak edən qüvvələrə döyüş tapşırıqlarının çatdırılması yekunlaşdırılıb.

Təlimlərin yekun mərhələsində terror-diversiya qrupları tərəfindən ələ keçirilmiş ticarət gəmisinin və neft ixrac özülünün azad edilməsi, həmçinin Xəzər dənizinin əməliyyat zonasına qeyri-qanuni daxil olan şərti düşmən gəmilərinin məhv edilməsi məqsədilə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterləri, sahilboyu yerləşdirilən Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, o cümlədən xüsusi təyinatlılar qarşılıqlı əlaqədə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.

Döyüş atışlarının icrası ilə həyata keçirilən təlimlərin əsas mərhələsində şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb olunan şəxsi heyətin peşəkarlığını, praktiki və mənəvi-psixoloji hazırlığının səviyyəsini, həmçinin bölmələrin döyüş qabiliyyətini yüksək qiymətləndirib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**25 avqust 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 13 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Berdavan, İcevan rayonunun Vazaşen kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli və Balacəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

**26 avqust 2016-cı il.**

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 13 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Sarıcalı, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Mənəvi borc

(Əvvəli 1-ci səhifədə)



### "Ön xətdə əsgərlərimlə çiyin-çiyinə xidmət etməkdən qürurluyam"

Ön xətdəki bölmələrdən birinə yenicə komandir təyin edilmiş Ülvi Xələflinin cəmi 21 yaşı var. Ürəyinin istəyi ilə seçdiyi zabit peşəsinə sıx bağlılığı, bu peşəyə olan sevgisi onun ilk günlərdən uğur qazanacağına zəmanət verir. Ümumiyyətlə, komandir olmaq üçün əsl hərbçiyə xas olan xarakterik xüsusiyyətlərə alışmalısan. Taqım komandiri ilə ilk tanışlıqdan onda belə xüsusiyyətlərin cəmləşdiyini hiss edirəm. Əgər müsahibim yetərincə möhkəm iradəyə, cəsarətə, mətinliyə malik olmasaydı, birdən-birə mürəkkəb şəraitdə xidmət etmək ona çətinlik yaradardı.

- Ömrümün yeniyetməlik dövrünə qədəm qoyanda artıq qərara aldım ki, mən zabit olacam, - deyir taqım komandiri. - Hərbi peşənin hansı çətinlikləri ola biləcəyini də yaxşı bilirdim, amma adamın daxilində olan istək, maraq hər şeyə güc gəlir. Təyinatımı belə dağlıq şəraitdə, kifayət qədər sərt təbiəti olan bölgədə yerləşən hərbi hissəyə alanda həvəslə xidmətə başladım. Qarşıma məqsəd qoymuşam ki, hərbi təhsil illərində öyrəndiklərimi burada uğurla sınaqdan çıxaracam və zabit peşəsinə olan istəyimin gücü ilə bütün çətinlikləri dəf edəcəm.



Həmişə yazılarımda da qeyd edirəm ki, ordumuzun sıralarında xidmət edən vətənpərvər gənc zabitlərlə tanışlıq məndə peşəkar komandir heyətinin formalaşmasına inam yaradır. 10-15 il əvvəl tanıdığım, xidmətindən yazdığım neçə-neçə gənc zabit bu gün ordu quruculuğuna dəyərli töhfələr verir. Onlardan neçəsi ali zabit rütbəsində məsul vəzifə daşıyır. Güclü, hazırlıqlı komandir ordunun döyüş qabiliyyətinin formalaşmasında mühüm rol oynayır, əbəs deyilməyib ki, güclü komandir olan yerdə, hazırlıqlı əsgərlər yetişir. Leytenant Xələfli ilə tanışlıqdan sonra əmin oluram ki, bir zaman o da Silahlı Qüvvələrimizin dəyərli komandirlərindən biri olacaq.

Gənc zabit söhbətində tabeliyində olan əsgərlərdən də danışır, hər birinin vətənpərvər, intizamlı döyüşçü olduğunu bildirir. "Ön xətdə əsgəri vəzifəsinin öhdəsindən bacarıqla gələn gənclərlə çiyin-çiyinə xidmət etməkdən qürurluyam. Vətənin keşiyində dayanmaq, xalqımızın, millətimizin əmin-amanlığını, torpaqlarımızın toxunulmazlığını qorumaq müqəddəs borcdur. Burada hər kəs belə müqəddəs vəzifəni yerinə yetirməyi Vətən qarşısında özünə mənəvi borc bilir və buna görə də döyüşçülərimizin əhval-ruhiyyəsi yüksəkdir".

### Əkiz döyüşçülər

Taqım komandiri döyüş növbəsindən qayıtmış təcrübəli əsgər manqa komandiri Amin Əliyevi təqdim edərək bildirdi ki, onun qardaşı da hazırda burada xidmət edir. Aminlə görüşürük, bəstəboy, qürurlu baxışları olan döyüşçüdür. Hərbi xidmətə bir il əvvəl Yardımlı rayonundan çağırılıb. Deyir ki, ailədə əkizdilər, qardaşı Amid də onunla eyni gündə xidmətə gəlib və hazırda bir hərbi bölmənin döyüşçüləri sırasındadırlar.

- İki qardaş bir yerdə xidmət etmək yaxşıdır, amma bu hal məsuliyyətimizi daha da artırır,- deyə döyüş növbəsindən qayıtmış Amin Əliyev bildirir. - Təbii şəraitlə bağlı çətinliyimiz yoxdur, əslində bu yerlər də bizə doğma rayonumuzu xatırladır. Komandirlərimiz hamı kimi, bizim də qayğımıza qalır, vaxtaşırı ailəmizlə əlaqə yaratmağa yardımçı olurlar. Burada komandir bizdən ötrü bir ata, bir böyük qardaşdır, hər kimin xidmətlə, yaxud şəxsi həyatı ilə bağlı problemi olursa, komandirə müraciət edir və qayğımıza qalırlar. Cavidan Əsədov, Ülvi Xələfli kimi tələbkar, qayğıkeş komandirlər olan yerdə xidmət etməyə nə var ki.

Sonra Amidlə də görüşürəm, o da qardaşı kimi xidmətindən, komandirlərindən, yüksək məişət şəraitindən, keyfiyyətli qidalanmadan razılıq edir. Nümunəvi xidmət üçün yaradılan yüksək şəraitə görə dövlətimizə, komandanlığa minnətdarlığını bildirir.

Komandir deyir ki, hərbi bölmədə əkiz qardaşların böyük hörməti vardır, çünki hər ikisi intizamlı, məsuliyyətli, vətənpərvər döyüşçüdür. Zabitə görə, layiqli ailə tərbiyəsi onları Vətənə dəyərli övlad kimi yetişdirib. "Hər tapşırığın öhdəsindən bacarıqla gəlirlər, belə vətənpərvər oğullar böyütdüklərinə görə valideynlərinə komandanlıq adından təşəkkür məktubu göndərilib".

### "Arzum valideynlərimin yanına qalib əsgər kimi qayıtmaqdır"

Döyüş postunda həmsöhbət olduğum əsgərlərdən biri də Füzuli rayon sakini, hələ doğulmamışdan taleyinə didərginlik nəsib olmuş Miryaqub Məmmədovdur. 14 ayın əsgərinə görə, cəbhə bölgəsində xidmət etmək qürurvericidir, axı Vətəni qoruyursan, hər qarışı müqəddəs olan ana yurdun keşiyində dayanırsan.



- Orta məktəbdə oxuyanda ədəbiyyat müəllimimiz sinifdə hamıya bir sual verməşdi: Vətən haradan başlanır?, - deyə əsgər yeniyetməlik illəri ilə bağlı bir xatirəsini bölüşür. - Hər kəs bu sualı öz istədiyi, bacardığı kimi cavablandırdı. Amma əsgərlikdə olduğum ötən 14 ayda bu sualın cavabını dərindən öyrənə bilmişəm. Ən ucqar nöqtədə yerləşən daşımız, kəsəyimiz Vətəndirsə, elə sərhəddən başlanır Vətən, - desəm yanılmaram. Doğulduğum el-oba bu gün düşmən əsirliyindədir, neçə ahıl-ağsaqqal qohumum ata ocağının həsrəti ilə köçür dünyadan. Düşmən işğalında olan torpaqlarımızı azad etməyincə, Vətən bizim üçün heç də sərhəddən başlamır. Axı torpaqlarımızın 20 faizi işğaldadır. Mübarizəmiz haqq uğrundadır, bu gün silahlanıb müharibəyə başlasaq, bizi gərək heç kim qınamasın. Şəxsən bir əsgər olaraq ən böyük arzum el-oba həsrəti valideynlərimin yanına qalib döyüşçü kimi qayıtmaqdır.

Deyirlər ki, işıqlı dünyaya göz açan hər kəsin boynunda torpaq haqqı var. Gərək doğulduğun torpağa, yurda bir övlad kimi mənəvi haqqını ödəyə biləsən. Torpaq elə o vaxt müqəddəsləşir ki, qoynunda böyütdüyü insan övladı ona dönük çıxmır, onu qorumağı özünə mənəvi borc bilir...

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", fotolar M.MÖHBALIYEVİNDİR**

# Hərbi Dəniz Qüvvələrinin təlimləri sona çatıb




*Avqustun 22-dən Hərbi Dəniz Qüvvələrində başlayan təlimlər bu gün sona çatıb.*

3000 nəfərədək şəxsi heyət, 30-dan artıq döyüş gəmisi, katerlər, 20-dək döyüş təyyarəsi, helikopterlər və 20-dən çox raket-artilleriya qurğusunun iştirakı ilə baş tutan təlimlər bir neçə mərhələdə həyata keçirilib.

Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, eləcə də xüsusi təyinatlıların cəlb olunduğu təlimlərdə şəxsi heyət qarşılıqlı əlaqədə təlim-döyüş tapşırıqlarını yerinə yetirib.

Təlimlərin döyüş atışlı əsas mərhələsində şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# Toplarımız hədəfləri məhv etməyə hazırdır



*Top komandiri çavuş Sakit Həsənovla görüşdük. Deyir ki, düşmən təxribatının qarşısını almaq üçün top heyəti daim hazır vəziyyətdədir. Döyüşçülərə yalnız "Atəş!" əmri bəs edər ki, düşmənin hədəflərini məhv etsin.*

Sakit deyir ki, o, on ilə yaxındır müddətdən artıq xidmətdədir. Top komandiri kimi həmişə fərqlənib. Bacarıqlı çavuş heyəti ilə birgə qarşıda dayanan döyüş tapşırığını yerinə yetirməyə hazırdır. Top komandiri deyir:

- İlk gündən artilleriyanın sirlərini mükəmməl öyrənməyi qarşıma məqsəd qoymuşam. Peşəkar zabitlərin keçdiyi təlim və məşqlərdə vacib vərdişlər qazanmışam. Hazırda qazandığım bilikləri tabeliyimdə olan əsgərlərə aşılayıram.

Baş tuşlayıcı Səxavət Fətullayev Bakının Qaradağ rayonundan hərbi xidmətə çağırılıb. O deyir ki, top haqqında müfəssəl bilikləri tələbkar manqa komandirindən öyrənib. Döyüş atışlı təlimlərdə fəal iştirak edir. Tuşlayıcı kimi hər dəfə hədəfləri dəqiq nişan alır. Əsgər əlavə edir ki, əzəli torpaqlarımızın erməni tapdağından azad edilməsi üçün hər an döyüşə hazırdır.

Ortaboy, qarayanız heyət nəfəri Qardaşağa Cəbiyev isə yarım ildir ki, Siyəzən şəhərindən əsgər gəlib. O da artilleriya ixtisasına dərindən yiyələndiyi üçün yetərincə məlumatlıdı. Silahdaşları kimi Qardaşağa da yağı tapdağı altında olan torpaqlarımızı azad etmək arzusundadır.

Döyüşçülər həm də qəhrəman Vətən oğlu İsgəndər Aznaurovun burada xidmət etməyindən qürur duyduqlarını deyirlər. Onlar da İsgəndər kimi düşmənə qarşı döyüşərək Vətənimizin ərazi bütövlüyünü bərpa etmək əzmindədirlər.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

Nümunəvi xidmət

# "Yeni zəfərlər qazanacağımıza əminəm"

*Bu gün Vətən eşqi ilə alışıb yanan döyüşçü nəsli, müasir silah-texnikaya malik olan Silahlı Qüvvələrimiz var. Hər gün xidmətimizdə, məişətimizdə müsbət dəyişikliklər baş verir, bütün bunlar isə bizi daha məsuliyyətli olmağa sövq edir. Müharibələr və nəticələri göstərir ki, təlimdə əziyyət çəkən ordu döyüşdə qalib gələrək öz bəhrəsini görür. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı tədbirlərinə əsasən, mütəmadi təlimlərin keçirilməsi buna sübutdur.*



Ezamiyyətimiz zamanı tanıdığım gizir Zəfər Hacıyev 2000-ci ildən cəbhə xəttində xidmət edir. Onun sözlərinə görə, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində möhkəmlənən Azərbaycan Ordusunun hərbi qulluqçuları xüsusi hörmət və ehtirama layiqdirlər. Təlimlərin döyüş hazırlığına müsbət təsir etdiyini deyən gizirə görə, qazandığımız təcrübə torpaqlarımızın azad edilməsinə zəmin yaradır.

- Bizlər Vətəni qoruyuruq. Gördüyünüz bu zirvələri (əli ilə dağları işarə edir) qarış-qarış gəzmişəm, çox postlarda xidmət etmişəm. Yenə də Vətən keşiyində, düşmənlə üzüzəyik, - deyə gizir söhbətini bir məşhur əsgər marşının sözləri ilə davam etdirir.

*Vətən məni yetişdirib,*
*bu ellərə yolladı,*
*Bu torpağa qurban deyib,*
*Allaha ısmarladı.*
*Boş oturma, çalış dedi,*
*xidmət eylə Vətənə,*
*Südüm sənə halal olmaz,*
*sən baş əysən düşmənə.*

Bu misralarda deyildiyi kimi, Vətən üçün yaşayırıq, qanımız da bu torpağa halaldı. Bu yoldan dönsək, düşmənə baş əysək, anamız südünü bizə halal eyləməz. Bizlər mətin, qorxmaz olmalıyıq. Çünki nümunəvi xidmət keçməyimiz üçün hər şərait yaradılıb. Ali Baş Komandanın qalibiyyət bayrağı altında yeni zəfərlər qazanacağımıza əminəm.

Hazırda yeməkxana rəisi olduğunu qeyd edən gizir şəxsi heyətin düzgün qidalanması üçün əlindən gələni etdiyini, hər zaman məsuliyyətli olduğunu bildirir.

- Əsgərlərimizə dolma, plov, küftə, bozbaş və.s milli yeməklər hazırlanır. Bir sözlə, döyüşçülərimiz yüksək kalorili ərzaqla təmin olunurlar, - deyir gizir.

"Bəs, döyüş postları ərzaqla necə təmin olunur?" sualına cavab verən gizir bildirdi ki, ön xətdəki bölmələrə ərzaq konservləşdirilmiş formada çatdırılır.

Hər kəs bilməlidir ki, ordumuzun inkişafı daim dövlətimizin diqqət mərkəzindədir. Əsgərlərimizin yeməklərindən tutmuş, yataq yerlərinə qədər bütün məişət qayğıları yüksək səviyyədə həllini tapıb.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**
**foto M.MÖHBALIYEVİNDİR**

# Cənubi Qafqazda geosiyasət: Ermənistanın absurd iddiaları və gerçəkliklər

Son zamanlar Rusiya, Azərbaycan, İran və Türkiyə arasında intensiv müzakirələr gedir. Bu ölkələr əməkdaşlığın yeni imkanlarını axtarırlar. Bakıda Rusiya, İran və Azərbaycan rəhbərlərinin, Sankt-Peterburqda isə Türkiyə və Rusiya prezidentlərinin görüşü bu aspektdə ümidverici məqamların mövcudluğunu təsdiqləyib. Erməni mətbuatı bu hadisələrə müəyyən reaksiya verib. Aparılan təhlil göstərir ki, İrəvan qeyri-müəyyənlik içindədir və özünün geosiyasi proseslərdən kənarda qalmasına ağrılı reaksiya verməkdədir. Bunun fonunda ermənilər absurd iddialar irəli sürür və demək olar ki, hər kəsdən narazılıqlarını ifadə edirlər. Məsələ ondan ibarətdir ki, ermənilər müstəqil dövlətçilik fəlsəfəsini hələ mənimsəyə bilməyiblər - onlar köhnə siyasi təsəvvürlərin əsiri olaraq qalırlar.

### Özünütəcrid: əsassız siyasətin acı bəhrələri

Ermənistan Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərin kontekstindən kənarda qalmaqdadır. İrəvan nə hadisələrin iştirakçısı ola bilir, nə də onlara təsir etmək imkanlarına malikdir.

Real olaraq isə Cənubi Qafqazda olduqca maraqlı geosiyasi proseslər gedir. Aydın görünür ki, Rusiya, Türkiyə, İran və Azərbaycan yeni əməkdaşlıq formaları axtarır, əlaqələri müasir mərhələnin tələblərinə uyğunlaşdırmağa çalışırlar. Bakıda Vladimir Putin, Həsən Ruhani və İlham Əliyevin apardıqları müzakirələrdə regional əhəmiyyətli qərarlar qəbul edilib.

Azərbaycan bu vacib hadisələrin mərkəzində yer alır. Rusiya və İran Bakının iqtisadi, siyasi, təhlükəsizlik, nəqliyyat və enerji sahələrində oynadığı rolu yüksək qiymətləndirirlər. Onlar bu istiqamətlər üzrə Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını gizlətmirlər.

Bununla regionda perspektivli əməkdaşlıq formatı öz təsdiqini tapmaqdadır. Burada iqtisadi, enerji, nəqliyyat sferaları ilə yanaşı, təhlükəsizlik aspekti də ciddi surətdə nəzərə alınır. Deməli, söhbət həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllindən gedir. Təbii ki, Rusiya, İran, Türkiyə və Azərbaycan danışıqlar vasitəsi ilə problemin ədalətli həlli variantı üzərində işləyə bilərlər. Azərbaycan tərəfi başqa heç bir ssenarini qəbul etmir. Çünki ərazi bütövlüyü şərti dəyişilməzdir.

Bunların fonunda Vladimir Putinin Ermənistan prezidentinə Moskvada münaqişənin ATƏT-in Minsk qrupu üzvlərindən bəzilərinin fəallığını artırması ilə həll ediləcəyinə işarə verməsi təsadüfi deyil. Erməni ekspertlər bunu Türkiyənin prosesə daha aktiv qatılması siqnalı kimi qiymətləndiriblər. Onu vurğulayaq ki, Ankara bir qədər əvvəl Minsk qrupunun iclaslarından birini Türkiyədə keçirməyi təklif etmiş və bu, həmsədrlər tərəfindən razılıqla qarşılanmışdı.

Buna baxmayaraq, erməni tərəfi bu addımı Rusiyanın geri çəkilməsi və Türkiyənin daha çox işə qarışması kimi təqdim etməyə çalışır. Bu informasiyaların fonunda isə Vladimir Putinin "Rusiya və Minsk qrupunun bir sıra dövlətləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin qarantı ola bilərlər" fikrini həyəcanla qarşılayaraq Rusiya prezidentinin "həmsədrlər" sözünü işlətməməsini onun faktiki olaraq Türkiyəni nəzərdə tutması kimi mənalandırırlar.

### Yanlış manevrlər və tərəddüdlər: şikayətçi İrəvan çıxılmaz dairədə

Lakin maraqlıdır ki, ermənilərin özləri də dediklərinə inanmayıb başqa bir versiyanı irəli sürürlər. Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsi Ermənistanın etirazlarına görə gələn ilin yazına qədər "dondurulub". Bunun başqa səbəbi kimi isə Rusiya, Türkiyə, İran və Azərbaycanın münaqişəni həll etmək üçün lazımi səviyyədə imkanlarının olmaması göstərilir.

Əslində, bu cür məntiqsiz izahların əsas səbəbi Ermənistanın baş verən proseslərdən kənarda qalması və gerçəkliyi təhrif edərək uydurma arqumentləri təhlil etməyə çalışmasıdır. Məhz buna görədir ki, onlar bir tərəfdən Ermənistanın Rusiyadan tam asılı olduğunu etiraf edir, digər tərəfdən isə İrəvanın hansısa "güc" nümayiş etdirməsindən dəm vururlar.

Həmin kontekstdə İqor Muradyan yazır: "...Ermənistan Cənubi Qafqazın geosiyasi cəhətdən ən zəif həlqəsi, dövlət olaraq ən çox asılı olanıdır, ancaq dünya güclərinin onunla əlaqə qurması asan deyil, çox mürəkkəbdir". Buna görədir ki, ABŞ real əməkdaşlıq əvəzinə zaman-zaman İrəvana "şikayətlər kitabı"na nəsə qeyd etməyi təklif edir. Belə çıxır ki, Ermənistan, ümumiyyətlə, dövlət kimi formalaşmayıb və onunla əməkdaşlıqdan ciddi çərçivədə danışmağın mənası yoxdur.

Beynəlxalq ictimaiyyət, ilk növbədə BMT, ATƏT, Avropa İttifaqı İrəvana ciddi təzyiq göstərməlidir. Xüsusilə böyük dövlətlər uzun illərdir apardıqları geosiyasi oyunlara son qoyub, həqiqəti söyləməlidirlər. Bunlar olmasa, Ermənistan adlandırılan qondarma dövlət Cənubi Qafqazın baş ağrısı olaraq qalacaq. Belə bir vəziyyətin isə hamı kimi, supergüclərə də xeyri yoxdur. Anlamayanlara zaman başa salacaq. Onda gec olmayacaq ki?!

**AZƏRTAC-ın materialları əsasında**

*Örnək*

# "Döyüş əmri alan kimi düşməni məhv edəcəyik"

Əsgərlərin həm döyüş hazırlığı, həm də mənəvi-psixoloji ruh yüksəkliyi qələbəyə zəmin yaradır. Mənəvi dəyərlərə sədaqətli olan əsgər Vətən sevgisini, düşmənə nifrət hissini dərk edərək döyüşə qələbə əzmi ilə başlayır. Onun bir amalı olur: Vətən uğrunda, torpaqların bütövlüyü uğrunda düşmənləri məhv etmək və son damla qanına qədər döyüşmək. Ona görə də ordu quruculuğunda əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılması məsələsinə ciddi diqqət yetirilir.

Bu bölgənin boydan-boya əhatə edən dağların zirvəsinə qalxırıq. Bu yüksəklikləri göz bəbəyi kimi qoruyan dağ vüqarlı Vətən oğullarının görüşünə gedirik. Bir neçə saatdan sonra dağların ən yüksək zirvəsinə çatırıq. 3 min metrdən çox olan yüksəklikdəki bölməyə daxil oluruq. Baş leytenant Tahir Eyyubov əsgərlərlə ictimi-siyasi hazırlıq dərsi keçirdi. Baş leytenantla daha yaxından tanış oluruq.

Əslən Quba rayonundan olan Tahir Bakı Slavyan Universitetinin filologiya fakültəsini bitirəndən sonra 2010-cu ildə əsgəri xidmətə çağırılıb. Hərbi xidmətə Ağdam rayonunda başlayıb və burada ehtiyat zabit hazırlığı kurslarında iştirak edib. Kursu müvəffəqiyyətlə başa vuraraq leytenant rütbəsi alıb və cəbhə xəttindəki bölmələrdən birində bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmətinə başlayıb. "Təhsilimi başa vurduqdan sonra qarşıma bir məqsəd qoydum. Zabit olacam, universitetdə yiyələndiyim biliklərimi əsgərlərimizlə bölüşəcəm. Əsgərlərin döyüş ruhunu artırmaq, onlarda Vətənə sevgi, düşmənə nifrət hissini formalaşdırmaq, onlara müəyyən mənəvi-əxlaqi keyfiyyətləri aşılamaq üçün bütün biliklərimi səfərbər edəcəm", - deyir baş leytenant. Torpaqlarımızın bütövlüyü və suverenliyi uğrunda canından keçən şəhidlərimizin, həmçinin Milli Qəhrəman Mübariz İbrahimovun guşəsi qarşısında əsgərlərlə söhbət edən gənc zabit onlara şəhidliyin ən uca mənəviyyat zirvəsi olduğundan həvəslə danışır.



- Günün nizam qaydasına uyğun olaraq keçirilən ictimai-siyasi hazırlıq dərslərində əsgərlərə tariximizdən, adət-ənənələrimizdən mütəmadi olaraq söhbətlər təşkil edirəm, - deyə zabit bildirir. - Ümummilli lider Heydər Əliyevin rəhbərliyi illərində ordu quruculuğunda həyata keçirilən məqsədyönlü islahatlardan danışıram. Son illər Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə xəttinə səfərləri, aprel döyüşlərində fədakarlıq göstərmiş hərbi qulluqçuların mükafatlandırılması şəxsi heyətin ruh yüksəkliyini artırıb.

Komandirlərini böyük maraqla dinləyən əsgərlərlə söhbətləşir, onların bir neçəsinin fikrini öyrənirəm. Əsgər Ruslan Salmanov hərbi xidmətə Şəki rayonundan çağırılıb. Bu bölmədə qardaşı Valera Salmanov ilə birlikdə xidmət edir. Ruslanın həmçinin bir övlad atası olduğunu öyrənirəm.

- Bizim üçün qürurverici haldır ki, iki qardaş çiyin-çiyinə Vətənə xidmət edirik, - deyə Ruslan söhbətində bildirir. - Komandirimizin nümunə göstərdiyi qəhrəmanlar kimi bir də döyüş meydanında şücaət göstərmək istərdik. Torpaqlarımızın azadlığı uğrunda lazım gələrsə canımızdan keçməyə hazırıq. Mən və qardaşımın ən böyük arzusu odur ki, torpaqlarımızı işğaldan azad edək. Və övladlarımızın gülüş səsləri Qarabağın səfalı guşələrindən gəlsin.

Növbəti həmsöhbətim isə hərbi xidmətə Ağdam rayonundan çağırılan əsgər Mirhəbib Həsənlidir. 14 aydan çoxdur ki, xidmət edən əsgər torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizlə fəxr etdiyini, onları özlərinə qəhrəmanlıq nümunəsi bildiyini söyləyir.

- Mən Azərbaycan əsgəri olmağımla fəxr edirəm. Bu adın mənasını yaxşı dərk edir, ordumuza layiqli əsgər olmaq üçün bütün məsuliyyətimlə xidmət edirəm. İctimai-siyasi hazırlıq dərsləri həm Vətənə olan sevgimizi, həm də dünyagörüşümüzü artırır. Düşməndən qorxmuruq və döyüş əmri alan kimi onları məhv edəcəyik.

Manqa komandiri vəzifəsində olan əsgər Məhəmməd Əhmədovla həmsöhbət oluram. O tabeliyində olanlara şəxsi nümunə göstərmək üçün döyüş hazırlığını daim artırır, daha məsuliyyətli xidmət etmək üçün çalışdığını deyir.

- Mən hər gün səhər manqama düzülüşdən əvvəl sıra baxışı keçirirəm. Komandirimizin tarixi mövzularda söhbətlər aparması, Milli Qəhrəmanların döyüş yolundan söz açması güvənimizi artırır. Vətənpərvərlik hissləri aşılayır və mənəvi hazırlığımızı yüksək tutur. Baş leytenant Eyyubov bizə tez-tez aprel döyüşlərindən, ordumuzun şanlı qələbəsindən söz açır. Silahdaşlarımızın göstərdiyi şücaətdən söz açaraq xalqın orduya olan dəstəyini diqqətimizə çatdırır.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

*Tibb xidməti*

# Vətəni qoruyanların sağlamlığı keşiyində



*Bu yaxınlarda cəbhə bölgəsində yerləşən hərbi hissənin tibb məntəqəsində qeydlər götürəndə gənc hərbi həkimlərdən biri yaxşı söz işlətdi: Vətəni qoruyanların sağlamlığını qorumaq bizim vəzifəmizdir. Doğrudan belədir, əsas bölmələri düşmənlə təmas xəttində və yüksək dağlıq şəraitində olan hərbi hissənin şəxsi heyətinin sağlamlığı keşiyində bacarıqlı tibb kollektivi dayanıb.*

İlk həmsöhbətim tibb məntəqəsinin rəisi tibb xidməti baş leytenantı Ruslan Muradovdur. Gənc hərbi həkim əvvəlcə özünü təqdim etdi. O, 7 yaşı olanda erməni hərbi birləşmələrinin işğalı nəticəsində Füzuli rayonundakı ata ocağından didərgin salındıqlarından danışdı. Düşmənə qarşı ürəyindəki hədsiz nifrətini, istənilən anda döyüşlər başlayarsa, silaha sarılıb vuruşacağını, habelə bir həkim olaraq döyüşçülərimizin həyatlarını qoruyacağını qeyd etdi. Ruslanın dedikləri bir neçə müharibə filmini yenidən mənə xatırlatdı. Qızğın döyüşlərdə həkim və feldşerlər çiyinlərində silah və tibbi çantaları ilə cəbhə xəttində olublar və öz vəzifələrini fədakarlıqla yerinə yetiriblər. Bu dəfə də hərbi hissəmizin tibb məntəqəsində ağxalatlı xilaskarlarımızla tanış olanda o qanlı-qadalı səhnələr, döyüşçülərlə çiyin-çiyinə səngərləri dolaşan həkim və tibb bacılarını düşündüm.

Bir dəfə hospitallardan birində hərbi həkimdən qeydlər götürəndə o mənə müqəddəs Hippokrat andı ilə Vətənə sədaqət andı olan Hərbi andımızın onlarda ikiqat məsuliyyət doğurduğunu bildirmişdi. Doğrudan hər ikisi önəmlidir, biri peşə andı, o birisi isə əsgəri and.

- 2010-cu ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini müvəffəqiyyətlə bitirərək Silahlı Qüvvələrimizin sıralarında hərbi tibb zabiti olaraq xidmətə başladım, - deyə Ruslan həkim söhbətimizdə bildirir. - Cəbhə bölgəsində, həm də mürəkkəb relyefə malik bir şəraitdə xidmətə başlamaq ilk gündən məsuliyyət hissimi artırdı. Artıq çətinliklərim arxada qalıb, komandanlıq etimad göstərərək məni məsul vəzifəyə təyin edib. Göstərilən etimadı doğrultmaq isə ən başlıca məqsədimdir.



Tibb zabitinə görə, müasir dövrdə dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunan Azərbaycan Ordusunda xəstəlik və yaralanmaya görə itkilərin sayı tam azalıb. O, hesab edir ki, buna səbəb hərbi hissələrdə maddi-texniki təminatın və şəxsi heyətin sosial-məişət şəraitinin yaradılmasıdır. "Bu gün ən ucqar döyüş postlarında belə sanitar-gigiyenik normalara əməl edilir, yeni əsgər vaxtında yuyunur, yaşayış şəraiti və qidalanması yüksək səviyyədədir. Müasir hərbi səhiyyə sisteminin mövcudluğu da hərbi qulluqçuların sağlamlığının etbarlı qorunmasına zəmin yaradıb. Cəbhə xəttinə yaxın ərazilərdə yerləşən səhra hospitalları döyüşçülərə istənilən halda tibbi xidmət göstərməyə malikdir".

İlk gündən cəbhə xəttində olan təcrübəli həkimin sözlərinə görə, həyatda ən böyük arzusu doğulduğu kəndə qalib kimi qayıtmaqdır.

Gənc tibb zabitlərindən olan leytenant Urfan Mehdizadə isə hərbi tibb fakültəsinin 2014-cü il məzunudur. Azərbaycanın hərbi səhiyyəsində kifayət qədər əməyi olmuş təcrübəli cərrah Sabir Mehdiyev onun dost-doğma əmisidir. Elə həkim peşəsini seçəndə də əmisinin şərəfli ömür yolunu özünə örnək bilib.

Tibb xidməti leytenantı Xəyal Bəkirli elə bu ilin məzunlarındandır. Təcrübəli həmkarları ilə çiyin-çiyinə çalışmaq isə onun tez bir vaxtda səriştə toplamasına zəmin yaradacaq.

İnanıram ki, səmimi və mehriban tibb kollektivi Vətənimizi qoruyan oğulların sağlamlığı keşiyində bundan sonra da ayıq-sayıq dayanacaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

AZƏRBAYCAN ORDUSU

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

# Sülh insanlara xoşbəxtlik gətirir

*Neçə illər öncə bir xarici qadın jurnalistin müharibə haqqında xatirələrini oxumuşdum. Müxbir yazırdı: "Əfqanıstana ezam olunmuşdum. Bir qəsəbədə uçub dağılmış daxmanın qarşısında çomağına söykənib oturmuş qocaya yaxınlaşdım, farsca azca bildiyimdən ordan-burdan danışdıq. Soruşdum ki, müharibə sənin üçün nə deməkdir? Cavab verdi ki, sülh zamanı oğullar atalarını dəfn edir, müharibədə isə atalar oğullarını. Cavab məni qane etmədi, elə bu qədərmi? - dedim. Yaşlı adam çuxura düşmüş gözlərini mənə zillədi. Gözlərinin olduğunu o an hiss etdim. - Sənə daha nə lazımdı, - dedi. Müharibənin nə demək olduğunu o an anladım sanki. Çomağa söykənmiş qoca son nəfəs kimiydi, çomaq azca tərpənsəydi, yıxılacaqdı. Burda niyə oturmusan, - soruşdum, - Məndən başqa qətlə yetirilməmiş bir nəvəm, bir də inəyim qalıb. Nəvəmi inəyin dalınca göndərmişəm, tapıb gətirsə, sağıb südünü içəcəyik, dedi.*

"Sülh zamanı oğullar atalarını, müharibədə isə atalar oğullarını dəfn edir", ifadəsi müharibənin acı tablosunu məharətlə cızır. Aprel savaşında şəhid olmuş Qabil Orucəliyevin anasını xatırladım. Ana ayaq üstə idi və oğlunun tabutuna əl qoyub yolun sonuna qədər çiynində apardı. Kimsə müharibə istəmir, analar isə heç istəmir... Ona görə də azadlıq, bərabərlik, ədalət adlandırdığımız dəyərlərdən ən çox arzu ediləni sülhdür. Maraqlıdır, görəsən bütün gözəllikləri, maddi və mənəvi dəyərləri ilə yaşadığımız dünyanın qədrini lazımi səviyyədə bilirikmi? Bəşər övladı bəzən haqsızlığın, terrorun və müharibələrin günahsız qurbanlarına çevrilir. Bütün bunların qarşısının alınmasında sülhün rolu danılmazdır. Ən kiçik regional münaqişələrdən tutmuş yüzillik müharibələrədək hər hansı qarşıdurmada yalnız sülh qalib gəlib. Buna görə də sülh bütün vasitələrin fövqündə dayanan ən güclü amildir. Təbii ki, sülhə nail olmaq tərəflərin həqiqətləri düzgün qiymətləndirməsi deməkdir.

Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq, hər sahədə inkişaf, bir sözlə, bəşəriyyətin var olması deməkdir. Dünyada sülhün carçıları gələcəyimiz olan uşaqlardır. Uşaqlar hər zaman açıq səma altında azad, dinc, əmin-amanlıq şəraitində yaşamaq arzusunda olublar. Sülh rəmzi olan göyərçinlərin uşaqlar tərəfindən sevilməsi də elə buradan irəli gəlir. Lakin hələ də münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, hər gün dinc insanlar, günahsız körpələr odsaçan silahların qurbanlarına çevrilməkdədir.

Sülh bəşəri rəmzə çevrilərək insanların arzuladığı və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən fundamental məfhumdur. Ona görə də dünya ölkələrinin yekdil qərarı ilə Birləşmiş Millətlər Təşkilatı 1981-ci ildə hər il 21 sentyabr Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdi. Bu əlamətdar günün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca daha da artır. Bu günün təsis olunmasıyla heç olmasa, ildə bir gün münaqişə ocaqlarında - silahlar susursa, atəşkəsə əməl edilirsə, deməli dünyanın sülhsevər xalqları sülhün keşiyindədir. 21 sentyabr günü - nəinki xalqlar arasında, həmçinin cəmiyyətdə münasibətlərin sağlamlaşmasına nail olmaq üçün yaradılan bir imkandır.



Beynəlxalq Sülh Gününün təsis edildiyi vaxtdan bəri hər il BMT Baş Katibinin dünya xalqlarına müraciəti olur. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsinin 60-cı ildönümü münasibətilə BMT-nin Baş Katibi Pan Gi Munun müraciətində qeyd olunduğu kimi, hələ də dünyada bir çox insanların hüquqları, xüsusilə silahlı münaqişələr zamanı və atəşkəs dövründə pozulmaqda davam edir: "Məhz buna görə də biz çalışmalıyıq ki, bəyannamədə qeyd olunan hüquqlar günümüzün reallığına çevrilsin". Baş katibin bildirdiyinə görə, BMT dünya xalqlarını səfərbər etmək məqsədilə mesaj kampaniyasına start verir: "Mənim mesajımda deyilir: 21 sentyabr Beynəlxalq Sülh Günüdür. Mən ümumdünya liderlərinə və bütün dünya əhalisinə səslənərək, münaqişə, yoxsulluq, və aclığa qarşı hamı üçün insan hüquqlarının təmin olunması istiqamətində qüvvələrin birləşdirilməsinə çağırıram."

Adı çəkilən bəyannamədə qeyd olunur: "Sülh danışıqlarımızın aparıcı qüvvəsidir. O həm də sülhməramlı fəaliyyət və preventiv diplomatiyadan tutmuş insan haqları və inkişafın gücləndirilməsinə qədər dünyanın hər yerində gördüyümüz bütün işləri birləşdirən bir məfhumdur".

Bütün bu qeyd etdiyimiz məsələlərin və məqamların fonunda xalqımızın Beynəlxalq Sülh Gününü hansı tərzdə, hansı əhval-ruhiyyədə qarşılaması isə təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl törədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq tribunalardan hər dəfə bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərməkdədir. 1994-cü ildən münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, buna birtərəfli qaydada əməl edilir. Ermənistan nəinki atəşkəsə əməl etmir, üstəlik, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam edir. Əlbəttə, bu, nüfuzlu beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin bərpası istiqamətində apardıqları siyasətə kölgə salır, onlara inamı azaldır.

Dünyanın bütün sülhsevər xalqları kimi, Azərbaycan xalqı da tarix boyu sülhün, əmin-amanlığın, dinc şəraitdə yaşamağın tərəfdarı olub. Lakin mənfur qonşularımız olan ermənilərin illərdir torpaqlarımıza iddiaları bu sakitliyi pozub. İllər ötsə də böyük Mustafa Kamal paşanın dediyi "Yurdda sülh, cahanda sülh" fikri öz aktuallığını itirmir. Əksinə, getdikcə günümüzün reallığına çevrilir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Əsgərin maraq dünyası*

# Kiçik səbəblərdən yaranan böyük müharibələr

*Bəşər yaranandan müharibələr həmişə olub. Qanlı savaşlarda minlərlə, milyonlarla insan həyatını itirib, şəhərlər, kəndlər yerlə-yeksan olunub. Buna görə də harada baş verməsindən asılı olmayaraq müharibələr qəbuledilməzdir.*

*Bəzi hesablamalara görə bu günə qədər dünyada irili-xırdalı minlərlə müharibə baş verib. Bunu bəlkə də çoxları bilmir ki, böyük müharibələrin başlanmasına kiçik mübahisələr, bəzən hətta gülməli hadisələr səbəb olub. Bu səbəblərə diqqət yetirəndə görürsən ki, illər uzunu müharibə edib qan tökməyə ehtiyac yox imiş. Amma bütün bunlar artıq baş verib və tarixin arxivinə qovuşub.*

### 150 min yaponun məhvinə səbəb olan 250 illik müharibə

Bu müharibənin başlamasına səbəb isə danışıqlar zamanı etiket qaydalarına düzgün əməl olunmaması idi. Səfirlər syoquna hədiyyə gətirərkən lazımi yerdə dayanmayıblar və lazımi anda ayağa qalxmayıblar. Bundan sonra samuraylar və saray nümayəndələri amansız müharibəyə başlayıblar. Bu müharibədə hər iki tərəfdən 150 min yapon həlak olub.

### Troya-Yunanıstan müharibəsi

Müharibə şahzadə Parisin gözəl Yelenanı qaçıraraq Spartadan Troyaya aparmasına görə başlayıb. Bu düşünülməmiş hərəkətin nəticəsində yunanlar Troya üzərinə qoşun çəkib və Yelenanı geri istəyiblər. Troya tərəfi isə bundan imtina edib. Nəticədə iki böyük ölkə üz-üzə gəlib, uzun müddət qanlı döyüşlər gedib, minlərlə insan həyatını itirib.

### Şaftalıya görə müharibə

Bir zamanlar ingilislər Manhettendə yerli hindularla qonşuluqda sülh şəraitində yaşayırdılar. Yüksək rütbəli məmurlardan biri bu cür yaşayışdan bezib hindulardan canlarını qurtarmaq istəyib. Amma qan tökməyə, dava salmağa ortalıqda bir səbəb yox imiş. Məmur çox fikirləşib "səbəb" tapır. Guya, o, bağından şaftalı oğurlayan hindu qızını tutub. Final isə çox faciəli olub. Hinduların hamısı bir-bir öldürülüb. Beləliklə, şaftalı hinduların ölümünə gətirib çıxarıb.

### "Xroniki" ispan-fransız müharibəsi

Bu müharibələrdən ən azı dörd dəfə olub, mütamadi olaraq qadınlara görə baş verdiyi üçün "xroniki" adlandırılırdı. Krallar növbə ilə başqalarının sevgililərini ələ keçirdikləri üçün onların arasında düşmənçilik başlayırdı.

### Portuqallara qarşı 4 illik qarşıdurma

4 il boyunca britaniyalılar və ispanlar portuqallara qarşı mübarizə aparıblar. Buna səbəb isə balaca ada olub. Əslində bu ada bir qala ərazisi boyda imiş. Sadəcə olaraq xəritənin miqyası düzgün verilməyibmiş. Düz dörd il ərzində səhvən bir qala uğrunda qanlar tökülüb, başlar kəsilib.

### İnəyə görə müharibə

Bu müharibə iki Afrika qəbiləsinin məhvinə gətirib çıxarıb. 1834-cü ildə başlayan müharibə iki il davam edib. Deyilənə görə qəbilələr arasında müharibə inəyə görə olub. Qəbilə başçıları bir-biri ilə inək üstə mübahisə ediblər. Sonda isə silaha əl atıblar.

### Saqqala görə müharibə

Bu, orta əsrlərdə Çində 3 il davam edən və 15 min nəfərin ölümünə səbəb olan müharibə idi. Bu qarşıdurmanın başlanmasına səbəb çinli aristokratın düşünülməmiş hərəkəti olub. O, digər aristokratlarla o qədər mübahisə edib ki, onu saqqalından dartdıqlarının fərqində olmayıb. Saqqal dartmaq isə Çində ən böyük təhqir hesab olunurmuş. Beləliklə bir saqqala görə 3 illik müharibə başlanır.

**Hazırladı:**
**Vahid MƏHƏRRƏMOV**

Ön xətdən reportaj

# Düşmən hər an nəzarətdədi

*Mövqelərimiz dağların yüksəkliklərində yerləşir. Həm də bura bədnam qonşularımızla sərhəddir. Ermənilər zaman-zaman torpaqlarımıza qənim kəsilirlər. Bu gün də təcavüzkar dövlət, işğalçılıq siyasətini davam etdirir. Xalqımız və dövlətimiz isə heç zaman torpaq itkisi ilə barışmayacaq. Azərbaycan münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bəyan etsə də, ölkə başçımızın qeyd etdiyi kimi, müharibə variantı da qaçılmazdır.*



Yayın ən isti günlərini yaşayırıq. Düşmənlə üz-üzə dayanan əli silahlı əsgərlər bunun fərqinə varmadan döyüş növbələrində həmişə ayıq-sayıqdırlar. Bu dağlarda zamanında müharibə gedib. Xalqımızın qeyrətli, döyüşən oğulları düşmənə bir addım belə irəliləməyə imkan verməyib. İyirmi ildən artıq davam edən atəşkəs dövründə də ermənilər bir neçə yüksəkliyi ələ keçirmək üçün cəhd göstəriblər. Lakin qəhrəman Azərbaycan əsgərlərinin sayıqlığı və yüksək döyüş bacarığı sayəsində düşmən itkilərlə geri çəkilib. Döyüşçülərimizin daim sayıq olduqları postların hamısı strateji əhəmiyyətlidir.

Baş leytenant Tarik Hüseynov deyir ki, hava şəraitinin burada tez-tez dəyişilməsinə baxmayaraq sayıqlığımızı bir an belə itirmirik. "Qarşımızdakı düşmən daim nəzarətdədir. Onların bütün hərəkətləri müşahidə edilir və bu barədə yuxarı komandanlığa məlumat verilir".

Üstüörtülü atəş mövqeyinə yaxınlaşırıq. Müşahidəçi əsgərlər İbrahim Abdullayev və Səfər İsmayılov xidmət yerindədirlər. Onlar mazğaldan və atəş sektorlarından qarşıdakı mövqelərə baxırlar.

Tərtər rayonundan olan Səfər deyir ki, bir ildən artıq burada xidmət etdiyi müddətdə dəfələrlə düşmənin təxribata cəhd etdiyinin şahidi olub.

Müşahidəçi əsgər Tərtər rayonunda gözünü açandan atəş səsləri eşidib. Ermənilərin cəbhə bölgəsində törətdiyi təxribatlardan hələ erkən yaşlarında xəbər tutub. Bu səbəbdən də böyüyəndə Vətənin müdafiəçisi olmaq istəyib. Bu gün o, əldə silah düşmənlə üz-üzə xidmət etməkdən qürur duyur. Hər an Ali Baş Komandanın əmri ilə işğalda olan torpaqlarımızı azad etmək üçün döyüşə hazır olduğunu deyir.

Onun silahdaşı İbrahim Abdullayev də xidmətdə ayıq-sayıqlığı ilə seçilən döyüşçülərdəndir. O deyir ki, xidmətinin ilk günündən hərbi bilikləri mükəmməl öyrənməyi qarşısına məqsəd qoyub.

Baş leytenant T.Hüseynov da söhbətimizdə adı çəkilən döyüşçülərin xidmətindən razılığını bildirdi. O əlavə etdi ki, belə cəsur əsgərlərin sayıqlığı sayəsində düşmən heç vaxt postlarımıza yaxın düşə bilməz.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Redaksiyanın poçtundan

# Əsgər qardaşıma



*Hörmətli redaksiya! Bir az götür-qoy etdikdən sonra qərara gəldik ki, ürəyimizdən keçənləri kağıza köçürüb sizə göndərək. Atam beş-altı il əvvələ qədər Azərbaycan Ordusunun zabiti olub, hərdənbir sizin qəzeti də evə gətirərdi. Məndən böyük iki bacım cəbhə bölgəsində doğulub, çünki atamgil xidməti ilə əlaqədar səkkiz il Füzulidə yaşayıb. Xahiş edirəm ki, özüm və bacılarım adından olan bu məktubu qəzetinizdə dərc edəsiniz.*

Biz ailədə üç bacıyıq. Qardaşımız yoxdur. Amma bacılarımla söhbətləşib qərara aldıq ki, bu ilin aprelində cəbhədəki döyüşlərdə hünər və şücaət göstərən, Vətən keşiyində dayanan əsgərlərimizi özümüzə qardaş seçək.

Əsgər qardaşım, sən yaxşı bilirsən ki, torpaq müqəddəsdir, onun üzərində boy atmışıq və sonda da ona qovuşacağıq. Sən buna görə də torpağı müqəddəs bilib onun uğrunda son nəfəsinədək vuruşmağı özünə borc bilirsən. Müdrikcəsinə deyilmiş bir cümlə var. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir". Bir cümlədəki böyük hikmətə fikir verirsənmi?

Sən yaxşı bilirsən ki, torpağın bir adı da Vətəndir. Vətəndir ona görə ki, sənin kimi oğullar, qardaşlar onun uğrunda döyüşməyi, vuruşmağı özlərinə müqəddəs borc bilirlər. Apreldə neçə igidimiz Vətən yolunda şəhid oldu, ən yüksək zirvəyə yüksəldi, bir millətin, bir xalqın yaddaşında əbədiyyət qazandı. Biz torpaq uğrunda şəhid olan əsgərlərimizin qəhrəmanlıq dastanı ilə torpağın müqəddəsliyini anlayırıq. Əsgər qardaşım, aprel hadisələrində düşmənə qətiyyət göstərməklə sübut etdiniz ki, siz bu torpağın, bu Vətənin sədaqətli övladları, əyilməz dayaqlarısınız.

İlk aprel günlərində zəfər yazan əsgər qardaşlarım! İndi sizdən istəyimiz odur ki, yolunuzu gözləyən analara, bacılara qələbə xəbərini də siz çatdırasınız.

**Aytən TEYMUROVA,**
**Bakı şəhəri, Səbail rayonu, 236 saylı orta məktəbin şagirdi**

# Xəbərlər:

## hadisələr, faktlar

### Sinqapurun "Sentek Marine" şirkəti ən böyük tonnajlı tanker tipli gəmi alıb



ABŞ-ın "GENMAR" şirkəti mülkiyyətində olan 312 min 638 DWT (Dead Weight Tonaj) xam neft daşıma tutumuna malik "GENMAR VICTORY" adlı ən böyük tonnajlı tanker tipli gəmini (VLCC) 29 milyon dollara Sinqapurun "Sentek Marine" şirkətinə satıb.

Qeyd edək ki, uzunluğu 330 və eni 70 metr olan "GENMAR VICTORY" 2001-ci ildə Koreya Respublikasında "Hyundai" tərsanəsində inşa edilib.

### İtaliyada zəlzələ qurbanlarının sayı 247 nəfərə çatıb



İtaliyada 6,2 bal gücündə baş verən zəlzələ nəticəsində ölənlərin sayı 247 nəfərə çatıb.

Avqustun 24-də İtaliyanın mərkəzi vilayətlərində 6,2-5,2 bal gücündə yeraltı təkanlar baş verib. Zəlzələ nəticəsində ən çox Akkumoli və Amatriçe şəhərləri zərər çəkib. Yaralananların sayının 400-ə çatdığı bildirilir. Minlərlə sakin yaşadığı yerləri tərk etməli olub. Xilasedicilər dağıntılar altında sağ qalanların axtarışını davam etdirirlər. Hadisə gecə əhalinin yatdığı saatlarda baş verdiyi üçün ölənlərin sayının artacağı güman edilir.

### Kolumbiyada 52 illik müharibəyə son qoyulub



Kolumbiya İnqilabçı Silahlı Qüvvələri (FARC) ilə hökumət arasında yarım əsri ötən müharibəyə son qoyulub.

Bununla bağlı 52 illik müharibəni sona çatdıran "tarixi" sülh müqaviləsi Kubada imzalanıb. Müzakirələr nəticəsində qəbul edilən anlaşma sənədini Kolumbiya nümayəndə heyəti adından Humberto de la Calle ilə FARC-ın nümayəndəsi İvan Marquez imzalayıblar. Tərəflər verdikləri birgə açıqlamada Kolumbiya hökuməti və FARC arasında yekun, tam və qəti bir razılaşmaya nail olunduğunu bildiriblər.

### Britaniyalı alimlər həyat üçün yararlı planet aşkarlayıblar



Londonun kraliça Mariya universitetində Hillem Anqlad-Esküdenin başçılıq etdiyi astronomlar qrupu Proksim Sentavr ulduzu ətrafında həyat üçün münasib şərtlərin olduğu planetin dövr etdiyini açıqlayıblar.

Yerdən 4,2 işıq ili uzaqlığında yerləşən həmin planetin səthində temperatur 30-40 dərəcə selsi arasında dəyişir.

Alimlər Yerə bənzər bu planetin 2018-ci ildə orbitə çıxacağı planlaşdırılan Ceyms Uebb adına teleskopun köməyi ilə gələcək tədqiqatlar və müşahidələr üçün əsas hədəf olacağını güman edirlər.

### Yakutiyada 800 min ABŞ dolları dəyərində almaz tapılıb



Rusiyanın Yakutiya vilayətində Nyunbinskaya borusundan 136,24 karatlıq almaz çıxarılıb. Qiymətli daşın uzunluğu 3, eni isə 2,5 santimetrdir.

Ekspertlərin fikrincə bu tapıntı indiyədək çıxarılan almazların içərisindən ən böyüyüdür. İlkin məlumata görə, tapılan almaz ən azı 800 min ABŞ dolları dəyərində qiymətləndirilib. Hazırda bu almazın hərraca çıxarılması planlaşdırılır. Hərrac zamanı qiymətli daşa ad qoyulacaq və auksionda yığılan pullar xeyriyyə işlərinə sərf olunacaq.

**AZƏRTAC-ın materialları əsasında**

*Ovqat*

# Xeyirxahlıq

*Əmimdən eşitmişəm: Böyük Vətən müharibəsində "qara kağız"ı gələnlərin çal-çəpərinə əl gəzdirməmiş kəndin başıpapaqlıları özlərinin çal-çəpərini yada salmazmış, əkin-səpini qurtarmamış özlərinin əkin-səpininə başlamazlarmış. Bu adət eldə-obada illərlə yaşadılıb... Belə məqamlar xalq yazıçısı İsa Hüseynovun "Tütək səsi" povestində də təsvir edilib.*

Şəhidlərimizə ehtiram indi daha yüksək səviyyədədir. Onların ailələrinə hər sahədə dövlət qayğısı var. Həyatda hər kəs gözlənilməz hadisələrlə, irili-xırdalı çətinliklərlə üzləşə bilir. Onda cəmiyyətin, bu mənada qonşuların yardımı lazım gəlir. Kəlbəcərli şair Əlinin bir şeiri yadıma düşür. Şair deyir ki, insan çətinə düşən qohumunun hayına, dadına çatınca qonşusu özünü yetirir.

İki il əvvəl olmuş bir hadisəni xatırlayıram: Gülarə xalanın həyat yoldaşı şəhid olmuşdu. Bir oğlu vardı, bir qızı. Oğlunun 8, qızının 6 yaşı vardı. Oğlunu maşın vurmuşdu. Xəstəxanadaydılar. O, xəstəxanada, oğlunun yanında qalırdı. Bu müddətdə qonşuları qızına doğması kimi qayğı göstərdi. Qohumları nə qədər üz vursalar da qonşuları qızı onlara vermədilər: "Biz qonşuluq haqqını itirə bilmərik" - dedilər. Gülarə xalaya evinə gəlməyə, xörək hazırlamağa da imkan vermirdilər. Gündə biri ona, oğluna baş çəkməyə gedirdi. Bir ay belə keçdi. Bu arada onun mənzilinin qaz pulunu, işıq pulunu da qonşuları ödədi. Onları xəstəxanadan Həmid kişinin oğlunun maşınıyla gətirdilər. İnsafən qohumları bu qərara etiraz eləməmişdilər.

Gülarə xalanın etirazlarına baxmayaraq uşaqların ikisini də məktəbə qonşuları hazırladı. "Həyatın, yaşayışın cövhəri insanlıqdı", - Həmid kişinin bu kəlamı hamının dilinin əzbəridi... Bunlar eşidənlərə bir mətləbi anlatdı: insanlıq gərəklidir, könül xoşluğu olan işlər görün.

Yadıma Zərdüst peyğəmbərin bir kəlamı düşür: xeyirli düşün, xeyirli işlər gör. Gülarə xalanın qonşuları məhz belə eləyirdilər, belə eləyirlər. Bu, təkcə qonşuluq münasibətlərini yaşatma istəyi deyil, həm də şəhidliyə, şəhidlərə sonsuz ehtiramın nəticəsidir.

Xeyirxahlıq, həm də təmənnasız xeyirxahlıq yaşadılmalıdır. Gülarə xalanın qonşuları belə vətəndaşlardır, belə insanlardır...

Gülarə xalanın oğlu indi yeniyetmədir. O da hərbi xidmətə çağırılacaq, o da əsgər olacaq. O da xeyirli işlər görəcək. Hərbi xidməti ən xeyirli iş hesab edəcək. Vətəndaş kimi, insan kimi ehtiram yiyəsi olacaq.

Azərbaycançılıq həm də xeyirxahlıq deməkdir...

**Şəbnəm BEHBUDZADƏ**

## Egon Jüttner: Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrası birmənalıdır

*Almaniya Bundestaqının deputatı, professor Egon Jüttner Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair sorğusu ilə bağlı açıqlama verib.*

Açıqlamada deyilir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün uzun müddət aparılan danışıqlar prosesində Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrası birmənalıdır və bu sənədlər münaqişəyə son qoymaq üçün atılacaq addımları özündə aydın şəkildə ehtiva edir. Almaniya bu qətnamələri dəstəkləyir. Dövlətin ərazi bütövlüyü məsələsi Almaniya üçün müzakirə mövzusu ola bilməz. Sovet İttifaqının süqutundan sonra sərhədlərin demarkasiyası ilə bağlı mübahisəli məsələlərin sülh yolu ilə nizamlanması, əfsuslar ki, mümkün olmayıb. Bütün bunlar mülki əhali üçün faciəvi fəsadların yaranmasına səbəb olub.

Doqquz milyon nəfər əhalisi olan Azərbaycanın bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərini həll etməsi faktı hazırkı miqrant böhranı şəraitində Almaniya üçün xüsusilə əhəmiyyətli məsələdir. Dünyanın bütün qaynar nöqtələrində sülhün bərqərar olunması naminə Almaniya Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı, NATO və ATƏT kimi beynəlxalq tərəfdaşları ilə yaxından əməkdaşlıq edir. Biz Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla nizamlanmasının tərəfdarıyıq. Ona görə ki, bu münaqişə bütün regionda sabitliyə təhlükə yaradır. Almaniya bu münaqişənin alovlanmasına səbəb olacaq istənilən təxribatı qətiyyətlə pisləyir. Bu cür münaqişələrdə hər zaman olduğu kimi, əsas qurban mülki əhalidir. Buna görə də, mən, Ermənistanın apreldə həyata keçirdiyi hərbi həmləni pisləyirəm".

**AZƏRTAC**

# Hərbi yeniliklər, ənənələr



**"Molot" minaatanı**

120 kalibrli M120-15 "Molot" minaatanı Ukraynanın "Mayak" zavodunda istehsal olunub. İlk dəfə XII ixtisaslaşdırılmış beynəlxalq "Silah və təhlükəsizlik-2015" sərgisində təqdimatı keçirilib və bu yaxınlarda Ukraynanın silahlanmasına daxil edilib. Sovet nümunəsindən fərqli olaraq silahın ömrünü uzatmaq üçün yeni ərintilərdən istifadə edilib. Silahdan dəqiqədə 12 atəş açılır, hədəfi məhvetmə uzaqlığı 7 kilometrdən çoxdur. Minaatan özündə hamarlüləli sistemi təsvir edir. Silahın təchizatı ağız hissəsində yerləşən xüsusi, iki təchizatlı qoruyucu mexanizm vasitəsi ilə həyata keçirilir. Minaatanının döyüş vəziyyətində çəkisi 210 kiloqram təşkil edir.



**Bora-12 snayper tüfəngi**

7,62 kalibrli Bora-12 snayper tüfəngi Türkiyənin məşhur silah şirkəti tərəfindən istehsal olunur. 2013-cü ilin əvvəllərində Türkiyə ordusunun silahlanmasına qəbul edilib.

Snayper tüfənginin yaradılması bu ölkədə icrasına 2008-ci ildə başlanmış dövlət proqramının bir hissəsidir. Bu proqram türk ordusunun yerli istehsalı hesabına təminat üçün nəzərdə tutulub. İlk dəfə 10-cu beynəlxalq "İDEF-2012" sərgisində nümayiş etdirilib.

Silahın uzunluğu 1235 mm, lüləsinin uzunluğu isə 660 mm-dir, 7,62 mm-li güllələrindən istifadə edilir. Maqazini 10 güllə tutur. Güllənin ilkin sürəti saniyədə 860 metr təşkil edir. Atəş məsafəsi 1200 metrə qədərdir. Çəkisi 6,4 kiloqram təşkil edir. Silah blok-model sxemi əsasında hazırlanıb. Əsas hissələri metaldan ibarətdir. Hazırda Avropa və Asiya ölkələrinə ixrac edilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsinə yüksəlib



Avqustun 25-də UEFA Avropa Liqasının pley-off mərhələsində mübarizə aparan Azərbaycan çempionu "Qarabağ" cavab oyununu keçirib.

"Qarabağ" klubu Tofiq Bəhramov adına Respublika Stadionunda "Höteborq" (İsveç) komandasını qəbul edib. Ağdam təmsilçisi görüşdə 3:0 hesabı ilə qələbə qazanıb.

Matçın ilk hissəsinin 18-ci dəqiqəsində kapitan Rəşad Sadıqov künc zərbəsindən vurduğu qolla hesabı açıb. İlk qoldan bir neçə dəqiqə sonra komandamızın yarımmüdafiəçisi Muarem Muarem növbəti topu rəqibin qapısına vurub.

51-ci dəqiqədə Dani Kintana Muarem Muaremin gözəl ötürməsindən sonra müdafiəçilərdən və qapıçıdan yayınaraq hesabı 3:0-a çatdırıb. Oyun bu hesabla da başa çatıb.

Beləliklə, iki oyunun nəticəsinə görə "Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqəni təmin edib.

## Azərbaycan basketbolçusu Ukrayna çempionatında çıxış edəcək



Basketbol üzrə Azərbaycan yığmasının üzvü Amil Həmzəyev yeni mövsümdə Ukrayna çempionatında çıxış edəcək.

Basketbolçumuz "Kremen" klubu ilə müqavilə imzalayıb.

Xatırladaq ki, bu klub ötən mövsümdə Ukrayna çempionatında 4-cü yeri tutub.

## Zabit Səmədov "WBC Muaythai" versiyası üzrə dünya çempionu olub




Qroznı şəhərində Çeçenistan Muxtar Respublikasının ilk prezidenti Əhməd-Hacı Kadırovun xatirəsinə həsr olunmuş peşəkar kikboksinq turniri keçirilib.

Turnir çərçivəsində "Axmed" kikboksinq klubunun rəhbəri, Azərbaycanın K-1 ustası Zabit Səmədov "WBC Muaythai" versiyası üzrə dünya çempionu titulu uğrunda rumıniyalı döyüşçü Katalin Moroşanu ilə qarşılaşıb.

Döyüş rəqibin hücumları ilə başlasa da, sonradan müdafiə mövqeyi tutan Zabit gözlənilmədən Moroşanunun sinəsinə güclü diz zərbəsi endirib. Rəqib nokaut vəziyyətinə düşdüyündən, Z.Səmədov qalib elan olunub. Döyüş 1 dəqiqə 13 saniyə davam edib və birinci raundda yekunlaşıb.

## İspaniya nəşri Azərbaycan idmançılarının uğurlarından yazıb

DIARIO LA RIOJA

İspaniyada nəşr olunan "La Rioja" qəzetində "Rio-2016" Olimpiadasının nəticələrinə dair geniş məqalə dərc olunub. Məqalədə Azərbaycan idmançılarının uğurlarına xüsusi diqqət ayrılıb.

Deyilir ki, Azərbaycanda idmanın inkişafına xüsusi diqqət göstərilir və məhz bu anlamda idmançı sayına nisbətdə qazanılan medalların sayı təqdirəlayiqdir. Məqalədə deyilir: "Azərbaycanın Olimpiadada iştirak edən 56 idmançısından 18-i evə medalla qayıdıb, bu, böyük uğurdur".

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 477
Nüsxə 4650